# Qəbələ yeni yüksəliş mərhələsində

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

(Əvvəli 9-cu səhifədə).

“Aqro-meşə massivlərinin yaradılması” barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmış Dövlət Proqramının icrası ilə əlaqədar olaraq nazirliyin yerli müəssisəsi tərəfindən 2017-ci il ərzində 0,7 hektar sahədə badam, 119,7 hektar sahədə fındıq, 4,9 hektar sahədə alma, 41 hektar sahədə şabalıd, 37,8 hektar sahədə qoz tinglərindən ibarət 204 hektar meyvə bağı salınmışdır. Ümumilikdə 33920 ədəd ting əkilmiş, 6109 kq toxum tədarük edilmişdir.

Rayonda kənd təsərrüfatı işlərinin aparılması üçün 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir. Bundan əlavə 410 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayonda 72 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı və 420 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.



Hesabat ilində rayonda iribuynuzlu mal-qaranın sayı 46326 başa, o cümlədən inək və camışların sayı 23183 başa, qoyun-keçilərin sayı 190737 başa, donuzların sayı 1115 başa, quşların sayı 390252 başa çatdırılmışdır. Ət istehsalı (diri çəkidə) 6264 ton, süd istehsalı 40313 ton yumurta istehsalı 10411 min ədəd, yun istehsalı 412 ton olmuşdur.

Rayonumuzda fəaliyyət göstərən 2 müasir heyvandarlıq kompleksi və 4 ədəd kiçik həcimli heyvandarlıq təsərrüfatı rayon əhalisinin heyvandarlıq məhsullarına olan tələbatının ödənməsində mühüm rol oynayır. Rayon ərazisində müasir sanitariya- gigiyena tələblərinə cavab verən mərkəzləşdirilmiş ət kəsimi məntəqəsinin yaradılması istiqamətində təkliflər hazırlanır.

Ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı görülən tədbirlər çərçivəsində heyvandarlıq məhsulları istehsalının artırılmasında, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında və damazlıq keyfiyyətlərinin yüksəldilməsində mühüm rol oynayan süni mayalama tədbirlərinin təşkili genişləndirilir.

Bu məqsədlə rayonda 8 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Keçən il ərzində süni mayalama mütəxəssisləri tərəfindən 7840 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalandırılmış heyvanlardan 3229 baş yüksək genetik potensiala malik buzov alınmışdır. 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova dövlət büdcəsinin vəsaiti hesabına subsidiya verilir. 2017-ci ildə 2206 baş süni mayalanmadan alınmış buzovlara görə heyvan sahiblərinə 220600 manat subsidiya hesablanmış və bu vəsaitin 191500 manatının heyvan sahiblərinə çatdırılması təmin edilmişdir.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizootik durum demək olar ki, sabitdir.

Rayon Qızılbalıqartırma Zavodu 2017-ci il ərzində Kür çayına 30700 ədəd qızılbalıq buraxılmasını təmin etmişdir. İl ərzində ana balıqlardan 150 min ədəd kürü götürülmüşdür. Hazırda zavodda 90 min ədəd körpə balıq yetişdirilir.



Bakı şəhərində 2006-cı ildən təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəal iştirak edirlər. 2017-ci ildə həmin yarmarkalarda 41,2 ton tumlu, 27,4 ton qərzəkli meyvələr və 6,5 ton müxtəlif tərəvəz məhsulları satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam etdirilir.

Ölkə Prezidenti cənab İlham Əliyevin aqrar sahəyə daim qayğı göstərməsi və bu sahədə rayonda görülən işlər bizə deməyə imkan verir ki, rayonumuzun aqrar sahəsi bundan sonra da sürətlə inkişaf etdiriləcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-cı ilin ötən dövrü ərzində vətəndaşların müraciətlərinə baxılması işi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından geniş istifadə olunmaqla vətəndaşların bütün müraciətlərinə baxılması təmin edilmişdir. Cari ildə rayon icra hakimiyyətinə ümumilikdə 802 ərizə daxil olmuşdur. O cümlədən 363 ərizə Azərbaycan Respublikası Prezidenti Administrasiyasından, 18 ərizə Milli Məclisdən, 17 ərizə Nazirlər Kabinetindən, 54 ərizə digər mərkəzi icra hakimiyyəti orqanlarından, 350 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur. Ərizələrin məzmunu əsasən vətəndaşların mənzillə təmin olunması, fərdi yaşayış evinin təmir edilməsi, onların müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımının və birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavab verilmişdir.

2017-ci ilin ötən dövründə vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüş, il ərzində 722 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də ötən dövr ərzində rayon icra hakimiyyəti başçısının 46 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 4437 nəfər iştirak etmişdir. Onlardan 343 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

Təkliflərin və müraciətlərin 322-si həll edilmiş, 14-ü ilə bağlı müvafiq izahatlar verilmiş, 17 məsələnin həlli isə respublikanın digər aidiyyəti təşkilatları tərəfindən icra edilməli olduğuna görə həmin təkliflərlə əlaqədar onlara müraciətlər ünvanlanmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalarının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, subartezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli tədbir iştirakçıları!**

Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı yekun nitqində qarşıda duran vəzifələrdən danışan Prezident cənab İlham Əliyev çox önəmli lyihələrin icrasının nəzərdə tutulduğunu 2018-ci ildə ölkədə makroiqtisadi vəziyyətin sabitliyi ilə bağlı lazımi tədbirlərin görüləcəyini bildirmişdir. Cənab İlham Əliyev qeyri-neft sektorunun inkişafının daim diqqət mər-



kəzində saxlanılacağını, sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin verlməsinin davam etdiriləcəyini, yeni iş yerlərinin açılması üçün işlərin davamlı olacağını, özünəməşğulluq proqramının icrasının məqsədilə müvafiq vəsaitin nəzərdə tutulduğunu bildirmişdir.

2018-ci ildə yeni mənzillərlə təmin ediləcək köçkünlərin sayının keçən illə müqayisədə 2 dəfə artırılacağını deyən dövlət başçısı onu da vurğulamışdır ki, sosial infrastruktur layihələrinin icrası davam etdiriləcək, bölgələrdə modul tipli məktəblərin tikintisi aparılacaq, regionlarda və paytaxtda məktəblərin və tibb müəssisələrinin təmiri və inşası həyata keçiriləcək.

Sənaye məhəllərinin yaradılması prosesinin davam etdiriləcəyini, kənd təsərrüfatının inkişafı üçün addımların atılacağını, yeni xalça fabriklərinin açılacağını deyən cənab İlham Əliyev bildirmişdir ki, pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, sitrusçuluqla bağlı müsbət nəticələr əldə olunduğuna görə bu sahələr gələcəkdə daha da inkişaf etdiriləcəkdir. Ölkə baçısı heyvandarlığın, arıçılığın, zeytunçuluğun inkişafı, yeni kənd təsərrüfatı texnikalarının alınması ilə bağlı əlavə tədbirlərin görüləcəyini də diqqətə çatdırmışdır.

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində cənab İlham Əliyev 2018-ci ildə 3 ASAN xidmət mərkəzinin fəaliyyətə başlayacağını və daha 5 mərkəzin tikintisinin aparılacağını qeyd etmiş, turizmin inkişafı il bağlı bu il də əlavə tədbirlərin görüləcəyini söyləmişdir. 2018-ci il TANAP layihəsinin icrası, Bakı-Tbilisi-Qars dəmiryolunun fəaliyyəti üçün önəmli il olacağını bildirən dövlət başçısı bu il ölkədə 2 min kilometrdən çox avtomobil yolunun çəkiləcəyini, bölgələrdə qazlaşdırma işlərinin 95 %-ə çatdırılacağını, 100 min hektardan çox sahənin su təminatının təşkil ediləcəyini qeyd etmişdir.

Bu il müstəqilliyimizin 100 illiyinin qeyd ediləcəyini deyən Prezident cənab İlham Əliyev Azərbaycan Xalq Cumhuriyyətinin yaradılmasını tarixi hadisə adlandırmış, müstəqil Azərbaycanın Azərbaycan Xalq Cumhuriyyətinin varisi olduğunu demişdir. Ölkə başçısı bütün bunları nəzərə alaraq 2018-ci ili “Azərbaycan Xalq Cumhuriyyəti ili” elan etmişdir.

Həmçinin yanvarın 29-da Heydər Əliyev Mərkəzində keçirilən “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda dövlət başçısı bir daha göstərdi ki, xalqla hakimiyyət arasında səmimi inam, birlik var. Cəmiyyət hökumətə, Prezidentinə inanır. Prezident isə xalqın birinci xidmətçisi olduğunu bir daha bəyan etdi. Budur Azərbaycanı dünyada, regionda fərqləndirən cəhət.

Ölkə Prezidenti konfransda bir daha qeyd edib ki, hakimiyyətin apardığı siyasətin prioritet istiqaməti Azərbaycan xalqının rifahına, problemlərin yüksək səviyyədə həllinə yönəlmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-ci il ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2018-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

**Diqqətinizə görə sağ olun.**